**Nurlan NƏSİROV**
Qərbi Kaspi Universiteti, **elmi rəhbər,** t.ü.f.d.

**Musa Məhəmməd oğlu KAZIMLI**
Qərbi Kaspi Universiteti, Tarix və fəlsəfə kafedrası, magistrant
E-mail: Mkazimli98@gmail.com

# İRAQ SƏLCUQLU SULTANLIĞININ GÜRCÜ FEODAL KNYAZLIQLARI İLƏ MÜNASİBƏTLƏRİ

**Xülasə**

Məqalədə XI-XII əsrlər İraq Səlcuqlu dövləti ilə Gürcü münasibətləri orta əsr yazılı mənbələri və müasir dövr tarixşünaslıq əsərləri əsasında tədqiqata cəlb edilmişdir. Böyük Səlcuq İmperiyasının parçalanması ilə meydana gələn ictimai-siyasi vəziyyət, buna səbəb olan iqtisadi feodal pərakəndəliyi səbəb-nəticə əlaqəsi vasitəsilə araşdırılmışdır.

Səlcuqlu dövlətində gedən taxt savaşları, bölünmələr nəticəsində İraq Səlcuqlu dövlətinin qurulması və IV Davidin hakimiyyətə gəlməsi ilə keçirdiyi islahatlar, apardığı ordu quruculuğu və İraq Səlcuqlu dövlətinin nəzarətində olan Cənubi Qafqaz ərazilərinə işğalçı və talançı yürüşləri göstərilmişdir.

Sultanların yerlərə təyin etdiyi Atabəylərin mərkəzdənqaçma meylləri, onlara qarşı aparılan mübarizə, edilən sui-qəsdlər işıqlandırılmış, AtabəyEldənizin gəlişi ilə bu mübarizənin yekunlaşması və bölgədə mütləq hakimiyyətin Eldəniz Atabəylərinin əlinə keçməsi ilə İraq Səlcuqlularının bölgədə faktiki hakimiyyətlərinin sonlanması göstərilmişdir. Cənubi Qafqaz regionunun 2 əsrə yaxın siyasi durğunluq sonrası baş verən siyasi münaqişələr konteksində yenidən müharibə və işğal meydanına çevrilməsinin arxasında olan iqtisadi maraqlar, həmçinin münaqişə tərəfli dövlətlərin tarix səhnəsində və regionda oynadıqları rol tarixi faktlarla izah edilməyə çalışılmışdır.

**Açar sözlər:** *Səlcuqlu, Gürcüstan, IV David , Didqori savaşı, Atabəylər, Qıpçaqlar.*

**DOI:** 10.54414/TADP8464

**Giriş**

XIəsrin sonu XII əsrin əvvəllərində Böyük Səlcuq imperiyasının daxilindəki siyasi pərakəndəliyin güclənməsi ilə mərkəzə bağlı yarım müstəqil dövlətlər meydana gəlmişdir. Bu dövlətlərdən biri olan İraq Səlcuqlu dövləti Cənubi Qafqaz tarixi üçün xüsusi əhəmiyyətə malikdir. Dövlətin meydana gəlməsi ilə Cənubi Qafqaz bu dövlətin nəzarəti altına keçdi.

Sultan Məhəmməd Təpərin (1082-118) ölümündən sonra özünü sultan elan edən Mahmud (1119-1131) hakimiyyət üstündə əmisi Səncərlə (1118-1157) razılığa gələ bilmədi və ona qarşı ordu göndərdi. Tərəflərin orduları 12 avqust 1119-cu ildə Zivədə qarşı-qarşıya gəldi. Baş verən döyüş Sultan Səncərin qələbəsi ilə yekunlaşsa da, Mahmudu bağışlamış və tərəflər arasında razılıq əldə edilmişdir. Razılığa əsasən Rey şəhəri istisna olmaqla İmperiyanın bütün qərb bölgələrinin idarəsi Mahmuda həvalə edildi. Digər Səlcuqlu əmir, məlik və bəyləri Səncərə itaət etməli idi. Eyni zamanda bu razılığa əsasən mərkəzi öncə İsfahan, daha sonra Həmədan olan İraq Səlcuqlu dövləti (1120-1194) quruldu [12, s.234,235].

**IV Davidin taxta çıxması. İslahatları və işğalları**

1089-cu ildə II Georginin(1072-1089) ölümündən sonra islahatçı ləqəbi ilə məhşur olan IV David (1089-1125) onun yerinə taxta çıxmış və paytaxtı Tiflis olan yeni vahid gürcü dövlətinin əsasını qoymuşdur [1, s.96].

O, hakimiyyətə gəldiyi zaman dağıntılara məruz qalan ölkəsini bərpa etmək, parçalanmış və yerlərindən köçən xalqını birləşdirmək üçün planlı siyasət yeritmək məcburiyyətində idi. Onun məqsədi ölkəyə nizam gətirmək, düşmənləri məğlub etmək, mərkəzdən qaçan feodal hakimlərə diz çökdürmək, mərkəzi dövlət aparatı yaratmaq, *Səlcuqlu* ordusuna daha güclü

müqavimət göstərə biləcək yeni bir ordu qurmaq və onları öncə Gürcüstandan sonra isə Cənubi Qafqazdan bir dəfəlik çıxarmaq idi [6,s.80].

Səlcuqlu dövlətinin parçalandığı və Xaçlıların, Bizansın Türk-müsəlman dövlətlərinə qarşı hücuma keçdiyi bir dövrdə yaranan pərakəndəlikdən faydalanmaq üçün IV David qonşu dövlətlərin ərazisinə hücum etməyə qərar verdi. I Xaçlı yürüşünün müvəffəqiyyətlə nəticələnməsi Davidə Səlcuqlu itaətindən çıxmaq üçün fürsət verdi. İlk öncə Səlcuqlulara vergi ödənilməsi dayandırıldı. Daha sonra Səlcuqlular üzərinə hücuma keçən Gürcülər 1104-cü ildə Kaxetiyanı, 1110-cu ildə Dzernanı, 1115-ci ildə Rustavini, 1117-ci ildə Kaladzor və Giş qalalarını və 1118-ci ildə Aqaranini və Lorini ələ keçirdilər [6, s.80].

Lorinin yenidən birləşdirilməsi siyasi və strateji nöqteyi nəzərdən çox əhəmiyyətli idi. Artıq cənubdan şərqi Gürcüstan və Tiflisə gedən yola nəzarət kral Davidin əlində idi.

Əldə edilən uğurlara rəğmən Səlcuqlular hələ də bölgədə güc sahibi olmaqda davam edirdilər. Bu isə, öz növbəsində, ələ keçirilən ərazilərin itirilmə təhlükəsini yaradırdı. Orduda həm hökmdar hakimiyyətini, həm də şəhərləri müdafiə edə biləcək sayda qüvvə yox idi. Mövcud olan qüvvə sayı isə məqsədləri həyata keçirməkdə yetərsiz idi. Buna görə də, Davidin birbaşa öz əmrində olan və digər hakimiyyət üzvləri ilə heç bir aslılıq əlaqəsində olmayan qüvvəyə ehtiyacı var idi. Bu zaman IV David əhali sayının çoxluğu, döyüş meydanındakı üstünlüklərini nəzərə alaraq qıpçaqlardan istifadə etmək qərarına gəldi. Bundan əlavə, David, nüfuzlu Qıpçaq bəyi Saraqanın oğlu, Otrakın qızı ilə evlənmişdi [3, s.61].

Beləliklə, David öz ordusunu Gürcüstan ərazisində yerləşdirilən Qıpçaqlardan təşkil edilən 40 min nəfərlik əlavə qüvvə ilə gücləndirdi. Bundan başqa ailələrindən alınaraq sarayda yetişdirilən 5 min Qıpçaq gənci də mərkəzdə vəzifələndirildi. Bu yaxın münasibətlər nəticəsində Qıpçaqların Gürcülərin təsiri ilə Xristianlıq dinini qəbul etdiyini görürük [12, s.232].

**Didqori savaşı və onun nəticələri**

1120-ci ilin Fevralından 1121-ci ilin iIyun ayına qədər Gürcü qoşunları Cənubi Qafqazın şərq və cənub-qərbində yerləşən Səlcuqlular üzərinə fasiləsiz yürüşlər təşkil edirdilər. Bunun nəticəsində Səlcuqlular öz istehkam bölgələrindən çıxarıldılar. Bununla yanaşı IV David Cənubi Qafqazın böyük yaşayış yerlərində məskunlaşan türklərə qarşı hücumlarını davam etdirməkdə idi. Xüsusilə, 1120-ci ildən Tiflis üzərinə hücumlar xeyli artmağa başlamışdı. Bəhs etdiyimiz dövrdən əvvəlki illərdə şəhər ətrafında yerləşən qala və şəhərlər tutulmuş və Tiflis mühasirəyə alınmışdı [6,s.97].

Gürcülərin artan təzyiqləri və illik 10 min dinar vergi tələbi qarşısında taqətdən düşmüş Tiflis müsəlmanları 1121-ci ildə İraq Səlcuqlu sultanı Mahmudun qardaşı və bəhs edilən dövrdə Naxçıvan, Arran və Araz çayına qədər olan bölgələrin hakimi vəzifəsini yerinə yetirən Məlik Toğruldan “onları Davidin təzyiqlərindən xilas etməsini və Tiflisə gələrək hakim olmasını” istədilər. Məlik Toğrul təklifi qəbul etsə də, gürcülərə qarşı döyüşmək üçün öz qüvvələrinin kifayət etməyəcəyi üçün əmirlərindən kömək istəmişdi. Mardin əmiri İlqaziyə xəbər göndərərək “Yürüş üçün hazırlıq görməyini” əmr etmişdi [10, s.235]. Əmir İlqaz Dübeyslə birgə 30 minlik qoşunla Məlik Toğrulun gəlməyini gözləmədən Tiflisə yarım günlük məsafədə düşərgə saldı. Bayraqları vasitəsilə tanıdığı Qıpçaq müşahidəçilərini görüb, qıpçaqların onun qoşununa qatılacağını düşündü və gələn qüvvələrə qarşı hazırlıq görmədi [12, s.247,248] İbn əl Əzraq Didqoriyə daxil olan İlqazinin “müttəfiqlərinin köməyindən məhrum olduğu üçün dağlardan enən gürcü qüvvələrinin qəfil hücum etməsi ilə” döyüşün başladığını göstərir.

İbn-əl-Əsir isə “döyüşdən əvvəl özünü təslim olmuş kimi göstərərək hiylə işlədən 200 qıpçaq döyüşçüsünün qəfil, pərakəndə şəkildə, hər tərəfə ox atması nəticəsində ordunun təlaşa düşməsi ilə nizamının pozulması” olaraq göstərir [2, s.88].

Göstərilən hər iki vəziyyətdə hücumu başlayan tərəfin gürcülər olduğu aydındır. Səlcuqlu ordusundakı intizamın pozulmasını görən IV David hücuma keçmişdir. Bu zaman oğlu Dimitriy rəhbərlik etdiyi qüvvələrlə birgə gizləndiyi yerdən çıxaraq, Səlcuqlu ordusunun müdafiə cinahları üzərinə doğru hücuma keçmişdir. 1121-ci ilin 18 Avqustunda baş verən döyüş nəticəsində Gürcülər onsuz da sıraları dağılmış

Səlcuqlu ordusunu məğlubiyyətə uğradır.[10: s.235,236]

Səlcuqlu qüvvələrini izləyən gürcülər çox sayda əsgəri öldürmüş,təxminən 4 min nəfərini əsir almışdır.

Beləliklə, IV David 1120-21-ci illərdə reallaşdırdığı bu tədbirlər sayəsində Gəncə, Kür və Çoroxun əhatə etdiyi Tao-Klarceti bölgəsini Səlcuqlulardan geri almağı bacardı. Lakin siyasi intizamın təmin edilməsi üçün Kartli bölgəsinin də yenidən birləşdirilməsi lazım idi.[2, s.89]

Bu məqsədlə döyüşdən sonra Tiflisə doğru hərəkət edən IV David şəhəri mühasirəyə alır. Çətin vəziyyətə düşən Tiflis əhalisi şəhər rəisini gürcülərin yanına göndərərək əfv diləsə də, razılıq əldə edilmədi. Mühasirənin yekununda 400 ildən artıq bir zamanda müsəlmanların hakimiyyəti altında olan Tiflis şəhəri gürcülərin tabeliyinə keçdi. 500 nəfər işgəncə edilərək öldürüldü və şəhərin böyük hissəsi yandırıldı, dövlətin paytaxtı isə Tiflisə köçürüldü [11, s.36].

İbn əl Əzraqın verdiyi məlumata görə Gürcülər tərəfindən Tiflis şəhəri düz 3 gün talan edildikdən sonra Şəhər əhalisinə bəzi vədlər verildi. Müsəlman əhalinin yaşadığı nahiyələrdə donuz saxlanılması, kəsilməsi, ticarətinin aparılması qadağan edildi. Əhalinin bir tərəfində xəlifə və sultanın, o biri tərəfində aAllah və peyğəmbərin adı olmaqla pul kəsilməsinə icazə verildi. Müsləman sakinə əziyyət verən şəxsin edam edilməsinə qərar verildi. Namaz qılınmasına, əzan və Quran oxunmasına icazə verildi. Cümə xütbələrinin oxunmasına, xəlifəyə və sultana dua edilməsinə sərbəstlik verildi. İllik gürcülərin beş dinar, Yəhudilərin dörd dinar, Müslümanların isə üç dinar verməsinə qərar verildi [2: s. 89,90].

Didqori zəfəri sayəsində Tiflisi mərkəz şəhərə çevirən gürcülər tarixi dövrlərində ilk dəfə şərq və qərb ərazilərini birləşdirməklə vahid Gürcüstanın əsasını qoydular. Əldə edilən zəfərlə IV David Cənubi Qafqazın böyük bir hissəsini öz nəzarəti altına aldı. Bununla Gürcüstan krallığı regionun ən güclü dövltətlərindən birinə çevrildi. Qıpçaqlardan yaratdığı ordu vasitəsilə iri feodalların öz üzərindəki təzyiqini aradan qaldırdı. Regiondakı siyasi üstünlük Gürcü krallığının əlinə keçdi [11, s.44].

Gürcü tarixində hər il 12 Avqust günü qeyd edilən *Didqoroba* bayramı bu zəfərin şərəfinə keçirilir.

**IV Davidin növbəti yürüşləri: Aninin işğalı və itirilməsi**

Tiflisin işğalından sonra hücumu davam etdirən IV David Səlcuqluların əhəmiyyətli mərkəzlərindən biri olan Azərbaycan şəhəri Gəncəyə hücum etdi. Zəlzələnin qala divarlarını dağıtmasından istifadə edib şəhəri işğal etdi. Güclü talandan sonra Tiflisə geri qayıtdı (1122) [9, s.41,42].

Dərbəndə doğru irəliləyən gürcülər Şirvanşahlar dövlətinə qarşı təhdid etdilər. 1123-cü ildə Şirvana daxil olan IV David Şirvanşahın iqamətgahı olan Gülüstan qalasını ələ keçirdi. Mart ayında isə Dmanisi ələ keçirildi. Mayda Somxit, Qaqni Terunaken, Kavazin, Manasqomni və Kalincakar qalaları tutuldu [4, s.68].

Tiflislilər gürcülərə qarşı Sultan Mahmuddan kömək istədilər. Eyni zamanda Dərbənddən imtiyazlı bir qrup Həmədana gedərək gürcülərdən şikayət etdilər. Bununla, Sultan Mahmud ordusu ilə birgə Şirvan bölgəsinə gəldi. Lakin onu qarşılayan Şirvanşahı həbs etdirməsi şəhərdə qarışıqlığa səbəb oldu.

Bu qarışıqlıqdan yararlanan, sərhəddə yerləşən 30 min nəfərlik gürcü qoşunu hücuma keçdi. Sayca üstün gürcü qoşununa qarşı döyüşməyin riskli olduğunu anlayan Sultan Mahmud 1123-cü ilin Avqustunda Həmədana qayıtdı [10, s.236].

Ani əmiri Əbüləsvar 8 oğlu ilə birlikdə əsir edilərək Abxaziyaya göndərildi. Ani mülk kimi gürcü feodalı Orbeliyan və oğlu İvana verildi. Müsəlmanların məscid kimi istifadə etdiyi kafedral yenidən kilsə olaraq ermənilərin ibadətinə verildi [7, s.83,84].

Ani şəhərinin region üçün strateji əhəmiyyəti olduqca üstün idi. Buna görə də, gürcülər üçün Aninin ələ keçirilməsi böyük əhəmiyyət kəsb edirdi. Buna baxmayaraq müsəlman əmirləri də Anini itirmək niyyətində deyildilər.

Aninin təslim edilməsi xəbərini eşidən Fadlun 1125-ci ilin yazında Xorasandan qayıtdı. Qonşu Divin və Qars əmirlərinin də köməyi sayəsində Anini mühasirəyə aldı. Ərzaq çatışmazlığı və qıpçaqların köməyə gəlməməsi şəhər hakimini danışıqlara getməyə məcbur etdi. Beləliklə, qədim kafedralın kilsə olaraq qalması

və bütün şəhər əhalisi üçün ümumi bağışlanma şərtlərinin qəbul edilməsi ilə Ani 1126-cı ildə Fadluna təslim edildi [13, s.63].

**İraq Səlcuq sultanlığında daxili çəkişmələt və Atabəylərin Azərbaycan uğrunda mübarizəsi**

IV Davidin ölümündən sonra hakimiyyətə gələn I Dimitriy atasının sağlığında "ələ keçirilən əraziləri vahid Gürcüstan tərkibində qoruyub saxlamaq" yolundakı xarici siyasətini davam etdirməyə çalışırdı. Lakin bu siyasətin davam etdirilməsi olduqca çətin idi. Çünki Davidin tutduğu və onların ətrafında yerləşən ərazilərdə yaşayan müsəlman əhalisi gürcülərə davamlı olaraq müqavimət göstərirdi [4, s.72,73].

Sultan Məsud (1135-1151) hələ hakimiyyətə gəlmədən əvvəl qardaşı Sultan Mahmudun dövründə Azərbaycan və Arrana hakim idi. Onun atabəyi Qara Sunqur demək olar ki, əraziləri bir başa onun adından idarə edirdi. (12-Nəcəf, 2010: 537) Məsudun hakimiyyətə gəlməsi ilə yerli əmirləri ətrafına yığaraq itaət göstərməkdən imtina etdi və bölgənin idarə olunmasını faktiki olaraq öz üzərinə götürdü [8, s.538].

Bu dövrdən etibarən İraq Səlcuqlu sultanlarının bölgədə nüfuzu demək olar ki, qalmadı. İdarəçiliklə bir başa Atabəylər məşğul olmağa başladılar. Gürcülər 1138-ci il Gəncə zəlzələsindən istifadə edərək şəhərə hücum edib 300 min nəfərə qədər insanı qətlə yetirdilər. Bu zaman Həmədan ətrafında olan Qara Sunqur sürətlə Gəncəyə doğru hərəkət etdi. Gürcü qoşunlarına çatıb onları məğlub etdi. 1140-cı ildə Qara Sunqur öldü. Çavlı Çandar hakimiyyəti öz əlinə aldı və onun hakimiyyəti sultan tərəfindən təsdiqləndi [4, s73,74].

Çavlı Çandarın ölümündən sonra (1146) Gəncə və Arran Hacib Əbdürrəhman Toqanyürəkə atabəy ünvanı ilə verildi. Lakin o, üsyan meylli davranışları nəticəsində Sultan Məsudun əmri ilə Əmir Hasbeg tərəfindən Gürcülər üzərinə yürüş hazırlığı zamanı öldürüldü. Beləcə, bu əmirlərin ölümündən sonra bütün Azərbaycanın idarə oluması 50 min nəfərlik orduya sahib Atabəy Şəmsəddin Eldənizin əlinə keçdi [5, s.48].

Bununla da, Azərbaycanı uzun bir müddət ərzində Eldəniz və oğulları müstəqil idarə etməyə başladılar. Beləliklə, İraq Səlcuqlularının bu ərazilər üzərindəki hakimiyyəti faktiki olaraq başa çatdı.

**Nəticə**

Böyük Səlcuqlu imperiyasının parçalanması nəticəsində yaranan İraq Səlcuqlu dövləti Azərbaycan da daxil olmaqla, Qafqaza yiyələnmişdi. Vahid Gürcüstan qurmaq uğrunda mübarizə aparan IV David İraq Səlcuqlu dövlətinə qarşı mübarizə aparmış və bu əraziləri öz torpaqlarına birləşdirməyə çalışmışdır.

Ordu və iqtisadi sahələrdə islahatlar keçirən IV David tez bir zamanda qüdrətli ordu yaradaraq İraq Səlcuqlu dövlətini dəfələrlə məğlub etmiş, bu ərazilər üzərindəki hakimiyyətini sual altında qoymuşdur. Xristyan dünyasının özünün İslam aləminə qarşı müdafiə qalası hesab etdiyi Tiflisi ələ keçirərək əbədi Gürcü şəhərinə çevirdi. İraq Səlcuqlu dövlətinin daxilində baş verən siyasi hərc-mərclik onun zəifləməsinə və tabeçiliyindəki ərazilərdə nüfuzunu itirməsinə səbəb oldu. Beləliklə, İraq Səlcuqlu dövlətinin cənubi Qafqazda faktiki hakimiyyəti başa çatana qədər (1146) Gürcülərə qarşı apardığı pərakəndə mübarizəsi bölgədə sabitliyin qısa fasilələrlə ardıcıl olaraq pozulmasına, Tiflis kimi vacib strateji əhəmiyyətə malik şəhərin itirilməsinə, iqtisadiyyatın məhvinə və demoqrafik vəziyyətin mənfiyə doğru dəyişməsinə səbəb oldu.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Allen W. A History of Georgian People. London: 1932
2. Ateş E. Selçuklu-Gürcü Mücadelelerinde bir dönüm noktası: Didgori savaşı (1121) ve sonuçları. *Tarih Araştırmaları Dergisi*. 2016; 35(60): 73-96. doi:10.1501/Tarar_0000000644
3. Çoğ M. Ortaçağ'da Kafkasya Havasında Kıpçaklar. *Karadeniz incelemeleri Dergisi*. 2015; 10 (19): 57-74.doi:10.18220/kid.29535
4. Eğilmez S. Selçuklu Gürcü İlişkileri (1060-1157), Erzurum: 2001.
5. Kayhan H. Azerbaycan Atabeyliğinin kurluşu ve Atabey İldeniz. *Türkiyat mecmuası*. 2018; 28(1): 45-65. doi:10.18345/iuturkiyat.437781

6. Lordkipanidze M. Georgia in the 11th-12th Centuries. Tbilisi: 1987
7. Minorsky V. Studies İn History, London: 1983.
8. Nəcəf Ə. Səlcuqlu Dövlətləri və Atabəylər tarixi (Oğuzların ortaya çıxmasından – XIV əsrlər), Bakı: Qanun,2010
9. Özdemir V. XII. ve XIII. Yüzyılda Türk – Gürcü münasebetlerİ (Türkiye selçukluları ve doğu anadolu türkbeylikleri döneminde), Konya: 2011
10. Sevim A., Merçil İ.,. Selçuklu Devletleri Tarihi, Ankara: 1995
11. Sunny R.G. The Making of the Georgian Nations, 1994
12. Turan O. Selçuklular tarihi ve türk islam medeniyyeti.İstanbul: Ötüken neşriyyatı, 2009.

**Нурлан Насиров**
Западно-Каспийский Университет **-научный руководитель, доктор философии по истории**

**Муса Мухаммед оглы Кязымлы**
Западно-Каспийский Университет, Кафедра истории и философии, магистрант
Email: Mkazimli98@gmail.com

## ВЗАИМООТНОШЕНИЯ СЕЛЬДЖУКСКОГО СУЛТАНА ИРАКА С ГРУЗИНСКИМИ ФЕОДАЛЬНЫМИ КНЯЖЕСТВАМИ

**Резюме**

В статье на основе средневековых письменных источников и современных историографических работ изучены отношения иракского государства сельджуков и Грузии в XI-XII веках. Через причинно-следственную связь исследована социально-политическая ситуация, вызванная распадом империи Великих Сельджуков, приведшей к нему экономической феодальной раздробленностью. В статье были затронуты тронные войны в сельджукском государстве, создание сельджукского государства Ирак в результате разделов, а также реформы, проведенные Давидом IV, когда он пришел к власти, строительство армии, вторжение и грабеж походы на территории Южного Кавказа, находящиеся под контролем иракского государства Сельджуков. Освещаются центростремительные тенденции назначаемых султанами атабаев, борьба против них, совершаемые заговоры, завершение этой борьбы с приходом Атабая Эльдениза и переходом абсолютной власти в руки Эльдениза и конец фактической власти иракских сельджуков в регионе. Экономические интересы за превращением региона Южного Кавказа в арену войны и оккупации вновь в контексте политических конфликтов, имевших место после почти двухвекового политического застоя, а также роль конфликтующих государств на исторической арене и в регионе объясняются историческими фактами.

**Ключевые слова:** *Сельджук, Грузия, Давид IV, битва при Дидгори, Атабеки, кипчаки.*

**Nurlan NASIROV**
Western Caspian University, Departament of History and Philosophy, **Scientific supervisor, PhD in history**

**Musa Mahammad KAZİMLİ**
Western Caspian University, Departament of History and Philosophy, Masters's degree
Email: Mkazimli98@gmail.com

## RELATİONS OF THE SELJUK SULTANATE OF IRAG WITH GEORGİAN FEUDAL PRİNCİPALİTİES.

**Summary**

The article deals with relations between the Iraqi Seljuk state and Georgia in the 11th-12th centuries based on medieval written sources and modern historiographical works. The socio-political situation caused by the breakup of the Great Seljuk Empire, economic feudal fragmentation that led to it, was investigated through the cause-and-effect relationship. The throne wars in the Seljuk state, establishment of the Seljuk state of Iraq as a result of divisions, and the reforms carried out by David IV when he came to power, building of the army, invading and plundering marches to the South Caucasus territories under the control of the Iraqi Seljuk state were touched upon in the article. The centripetal tendencies of the Atabays appointed by the sultans, struggle against them, conspiracies being committed, completion of this struggle with Atabay Eldeniz's arrival, and transfer of absolute power into his hands, end of the actual power of the Iraqi Seljuks in the region are highlighted. The economic interests behind the transformation of the South Caucasus region into the arena of war and occupation again in the context of political conflicts that took place after nearly 2 centuries of political stagnation, as well as the role played by the conflicting states in the historical scene and in the region, are explained with historical facts.

**Keywords:** *Seljuk,Georgia, David IV, Battle of Didgori, Atabays, Kipchaks.*

**Daxil olub:** 14.08.2022